

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 138 (21.799)

25 iyul 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## İqtisadi və sosial sahələrdə qazanılan uğurlar gələcək sürətli inkişafımızın əsasını təşkil edir

### Bu ilin ilk altı ayında əldə edilən nailiyyətlər də belə deməyə əsas verir



*Güclü iqtisadiyyat müasir cəmiyyət quruculuğunun əsas şərtlərindəndir. Bu mənada, müasir Azərbaycanın ümumi inkişaf mənzərəsində özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikası iqtisadi və sosial həyatın bütün sahələrində qazandığı uğurlar ilə diqqətləri cəlb edir. Bütün bunlar əsası ümummilli liderimiz tərəfindən müəyyən olunmuş inkişaf strategiyasının davamlı şəkildə həyata keçirilməsi nəticəsində əldə edilib. Artıq ilk yarısı başa çatmış olan 2017-ci ilin ötən dövrünə qısa nəzər saldıqda görürük ki, iqtisadi inkişaf göstəricilərinin sosial və humanitar sahəyə uğurla transformasiya edilməsi nəticəsində muxtar respublikamız əvvəlki illərdə olduğu kimi, yenə də regional inkişafda öz lider mövqeyini qoruyub saxlamaqdadır.*

Muxtar respublikamızın müasir inkişafının özünəməxsus xüsusiyyətləri vardır. Bu gün Naxçıvanın şöhrətini hər yerə yayan təbii sərvətlərin bu torpağın əsl sahiblərinə rifah gətirməsi, onların milli sərvətimizə çevrilməsi məhz gərgin əməyin nəticəsində mümkün olub. Bu gün artıq sübut olunub ki, bu torpağın hər qarışının sərvətləri məhz uzaqgörən siyasətin bəhrəsi nəticəsində yurdumuzun çiçəklənməsinə xidmət edir. Bütün bunlar ölkə Prezidenti cənab İlham Əliyevin cari ilin əvvəlində muxtar respublikaya son səfəri zamanı dediyi sözlərdə də öz əksini tapıb. Həmin vaxt Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsindəki əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün yaşayış binasının, Naxçıvan şəhər 3 nömrəli tam orta məktəb binasının, Culfa və Şahbuz rayonlarının mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılış, Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimlərində iştirak etmiş, Azərbaycan Prezidenti cənab İlham Əliyev muxtar respublikada aparılan irimiqyaslı tikinti-quruculuq tədbirlərini yüksək qiymətləndirərək demişdir: ***"Doğrudan da son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

2017-ci il muxtar respublikamız üçün uğurla başladı. Cari ilin ilk yarımilində ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 1 milyard 208 milyon manatdan artıq olub ki, bu da bir il öncəki müvafiq göstəricidən 1,3 faiz çoxdur. Geriyə dönüb baxdıqda görürük ki, iqtisadi artımın müsbət dinamikada qorunub saxlanılması üçün görülən tədbirlər öz bəhrəsini verməkdədir. Muxtar respublikada daxili imkanlar hesabına yeni istehsal müəssisələrinin yaradılması region iqtisadiyyatı inkişafının uzunmüddətli bir dövr üçün dayanıqlılığına zəmanət verir. Nəticədə, əhalinin həyat səviyyəsinin yüksəlməsinə şərait yaradan zəruri istehsal-əmək münasibətləri təkmilləşdirilərək işlək vəziyyətə gətirilib. Bütövlükdə, dünya iqtisadiyyatında davam edən qeyri-müəyyənlik və mürəkkəb konyunktura şəraitinə baxmayaraq, cari ilin ilk altı ayında hər bir nəfərə düşən ümumi daxili məhsulun, əhaliyə göstərilən pullu xidmətlərin həcminin artımı Naxçıvanda insanların rifahının yüksəldilməsi naminə görülmüş işlərdən xəbər verir.

Bazar iqtisadiyyatında azad sahibkarlığın fəaliyyət göstərməsi, onun stimullaşdırılması, təşəbbüskarlığın dəstəklənməsi əsas şərtlərdəndir. 2017-ci ilin ilk yarısı, bu mənada, uğurlu layihələrin həyata keçirilməsi ilə də yadda qalıb. Bu dövrdə muxtar respublikada özəl sektora 1 milyon 814 min manat həcmində kreditlər verilib, dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 23 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb. Naxçıvanda həyata keçirilən iqtisadi layihələrlə bərabər, eyni zamanda geniş sosial infrastruktur şəbəkəsi də yaradılıb, insanların həyat keyfiyyətinin yüksəldilməsi üçün konkret addımlar atılıb. Muxtar respublikada şəhərlə kənd arasında fərqin azaldılması, yerli xammal və ehtiyatlar hesabına yeni iş yerlərinin yaradılması bu dövrdə diqqət mərkəzində olub. Bəhs olunan dövrdə muxtar respublikada 97,8 faizi daimi iş yerləri olmaqla, 1302 yeni iş yeri yaradılıb.

Naxçıvanın geniş istehsal-iqtisadi potensialı və insan resursları vardır. Eyni zamanda mövcud olan bütün iqtisadi resurslardan səmərəli istifadə üçün geniş təcrübə də əldə olunub. Bütün bunlar yeni iqtisadi şəraitdə qarşıya qoyulmuş əsas tələblərdən biri olan iqtisadiyyatın şaxələndirilməsi və zəruri sahələrin inkişaf etdirilməsi üçün çevik idarəetmə mexanizmi də formalaşdırıb. Bu baxımdan muxtar respublika üzrə ümumi daxili məhsulda 30,5 faizlik payla ilk yeri tutan sənaye sahəsinin inkişafı diqqəti cəlb edir. Bu gün muxtar respublikada 371 növdə məhsul istehsal olunması, 344 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi məhz iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığa göstərilən dövlət qayğısı və yeni iqtisadi layihələrin dəstəklənməsi sayəsində mümkün olub. Bu layihələr müasir iqtisadi həyatımızın hər sahəsində – sənaye, kənd təsərrüfatı və emal sənayesi, rekreasiya və turizm, nəqliyyat və rabitə, ekoloji təmiz məhsulların istehsalı, ticarət və məişət xidməti kimi bir çox yerlərdə uğurla reallaşdırılmaqdadır. Bunların həyata keçirilməsi isə, şübhəsiz, Naxçıvanın sənayeləşməsi və ixrac potensialının artırılması yolunda çox mühüm addımlardır. Cari ilin ilk yarımilində Naxçıvanda 523 milyon 693 min 400 manat həcmində sənaye məhsulunun istehsal olunması və xarici ticarət dövriyyəsinin 177 milyon 493 min 400 ABŞ dolları həcmində müsbət saldo ilə 203 milyon 822 min 200 ABŞ dolları həcminə çatması muxtar respublika iqtisadiyyatının yeni iqtisadi şəraitə çevik uyğunlaşmasının nəticəsində mümkün olub.

Blokadanın yaratdığı çətinlikləri artıq çoxdan dəf etmiş Naxçıvanda ərzaq təhlükəsizliyinə tam nail olunub. Cari ilin ilk altı ayında bu sahədə görülmüş işlər arasında bir il öncəyə nisbətən 3,1 faiz çox, yəni 122 milyon 439 min 800 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunduğunu görməkdəyik. Torpaqla məşğul olan kəndliyə hər cür dəstəyin verilməsi, əl əməyinin yüngülləşdirilməsi, bu sahədə mütərəqqi yeniliklərin tətbiqi diqqətdə saxlanılıb. Etibarlı ərzaq təminatı yaradılması Naxçıvanda daxili bazarın tam təmin olunması ilə yanaşı, ərzaq məhsullarının ixracına da şərait yaradıb. Muxtar respublikada əhalinin etibarlı ərzaq təminatı ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində 2017-ci ilin məhsulu üçün taxıl və kartof əkinlərinin genişləndirilməsi, üzümçülüyün, tütünçülüyün daha da inkişaf etdirilməsi məqsədilə konkret tədbirlərin görülməsi öz nəticələrini verməkdədir. Hazırda muxtar respublikamızda taxıl biçini kampaniyası uğurla davam etdirilir. Heyvandarlıq sahəsində – ət və süd istehsalında əldə olunmuş nailiyyətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə uyğun olaraq 2,3 və 1,3 faiz çoxdur. Muxtar respublikada arıçılığın daha da inkişaf etdirilməsi diqqət mərkəzindədir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində mühüm addımlar atılır.

İqtisadi inkişaf insan amilindən asılı olduğu kimi, onun nəticələri də insan kapitalının formalaşmasına xidmət edir. Əhalinin sağlamlığının qorunması, gənclərin savadlı yetişdirilməsi, bu mənada, dövlətimizin daim diqqətindədir. Bu ilin ötən dövründə sənaye, kənd təsərrüfatı, xarici ticarət sahələrində əldə olunmuş nailiyyətlər nəqliyyat, rabitə və həmçinin təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və turizm kimi sosial sfera sahələrinin də yüksəlişinə təsir edib. Bu müddət ərzində muxtar respublikada ali və orta təhsil müəssisələri üçün yeni binaların tikintisi və yenidən qurulması davam etdirilib, əhaliyə göstərilən səhiyyə xidmətlərinin daha da yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb. Muxtar respublikamızda aparılan səmərəli sosial siyasət, insan amilinə göstərilən yüksək qayğı artıq hər sahədə öz müsbət nəticəsini verməkdədir. Naxçıvan Muxtar Respublikasında əhalinin 1 iyun 2017-ci il tarixdə 450 min 400 nəfəri ötməsi həm də muxtar respublikanın sosial-iqtisadi inkişafının, insanların həyat səviyyəsinin yüksəlməsinin nəticəsidir .

Naxçıvan turizm məkanıdır. Önümüzdəki il muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri üçün mühüm bir tarixi hadisə ilə əlamətdar olacaq. İslam mədəniyyəti nümunələri ilə zəngin Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması qədim diyarın bir turizm mərkəzi kimi cazibəsini daha da artıran mühüm amildir. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 23 yanvar tarixli Sərəncamı ilə elan olunmuş müsabiqədə seçilmiş "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018" loqotipinin təqdimatı əhəmiyyətli hadisə kimi yaddaqalan olub.

*Uğurla başa vurulmuş 2017-ci ilin ilk yarısı gələcək nailiyyətlərimizin daha da artması üçün geniş imkanlar açır. Ötən dövrün təhlili onu göstərir ki, iqtisadi və sosial sahələrdəki uğurları ilə ölkəmizin iqtisadi qüdrətinə daha da güc qatan Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyev yolu ilə inamla irəliləyir.*

**Əli CABBAROV**

## Ordubad rayonunun Şəhriyar qəsəbəsi yeni quruculuq ünvanına çevrilib





Şəhriyar inzibati ərazi dairəsi Kotam kəndini və Şəhriyar qəsəbəsini əhatə edir. Vaxtilə Ordubad şəhərinin dəmiryol vağzalı kimi tanıdığımız Şəhriyar qəsəbəsi müstəqillik illərinin töhfələrindəndir. Uzun illər boyu bir neçə yöndəmsiz yaşayış binasından ibarət olmuş bu məkanın əksər ərazisi daş-çınqıllı sahələr idi. Son illər yararsız sahələr abadlaşdırılıb, bir-birindən gözəl fərdi yaşayış binaları inşa olunub. Qəsəbədə bu gün də quruculuq işləri davam etdirilir.

Burada əhalinin meyvə-tərəvəzini saxlamaq üçün soyuducu anbar tikilmişdir. Hazırda isə Şəhriyar qəsəbəsində "Naxçıvan Dəmiryolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən Ordubad dəmiryol sərnişin vağzalı, eləcə də Yol Sahəsinin inzibati binaları inşa olunur. Ordubad Yol Sahəsinin yardımçı binalarında və Ordubad İdarəetmə Mərkəzində isə əsaslı təmir işləri həyata keçirilir. Artıq həmin binaların dam örtüyü vurulmuş, qapı-pəncərələri salınmışdır. Binaların daxilində isə kommunikasiya xətlərinin çəkilişi və suvaq işləri aparılır, fasadına üzlük daşları vurulur. Sözügedən tikililərin ətrafının abadlaşdırılması, səkilərə bordür və kilid daşlarının düzülməsi işləri də başa çatdırılmaqdadır.

Bundan başqa, Şəhriyar qəsəbəsində yeni kanalizasiya və su xətlərinin çəkilişi də tamamlanmışdır... Qəsəbədəki iki ikimərtəbəli ümumi yaşayış binasındakı mənzillərə qapı və pəncərələr salınıb, yaşayış məntəqəsinin görkəminə xələl gətirən yöndəmsiz tikililər sökülüb. Qəsəbəyə gələn avtomobil yolunda isə yağış sularının sıradan çıxardığı asfalt örtüyü bərpa edilərək yol genişləndirilir.

Hazırda inşası davam etdirilən 36 meqavatlıq Ordubad Su Elektrik Stansiyasının əsas avadanlıqları Şəhriyar qəsəbəsinin ərazisində quraşdırılacaq. Bu isə o deməkdir ki, bu yaşayış məntəqəsi tezliklə daha da böyüyüb gözəlləşəcək.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda Milli Mətbuat Günü qeyd olunmuşdur



***İyulun 22-də Naxçıvan şəhərində Milli Mətbuat Günü münasibətilə tədbir keçirilmişdir.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi, mətbuatın inkişafı da diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamı muxtar respublika mətbuatını yeni inkişaf müstəvisinə çıxarmışdır. Bu inkişafın nəticəsidir ki, hazırda muxtar respublika paytaxtının və hər bir rayonun mətbuat orqanı vardır. Bu mətbuat orqanlarında maddi-texniki baza yaxşılaşdırılmış, müasir iş şəraiti yaradılmışdır. “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni kompleks tikilmiş, burada müasir çap-poliqrafiya avadanlıqları quraşdırılmış, qəzet və jurnalların yüksək poliqrafik keyfiyyətlə nəşri təmin olunmuşdur. Bununla yanaşı, “Şərq qapısı” qəzetinin internet saytı da yaradılmışdır.

Muxtar respublikada mətbuat orqanlarının maddi-texniki bazasının yaxşılaşdırılması ilə yanaşı, kadrlarla təminatı da diqqətdə saxlanılır. Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası açılmış, mütəxəssis hazırlığı üçün zəruri şərait yaradılmışdır. Muxtar respublikada fəaliyyəti ilə seçilən mətbuat işçilərinin əməyi də dövlət tərəfindən yüksək qiymətləndirilir, onlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülürlər. Milli Mətbuat Günü ilə bağlı keçirilən bu tədbir də Ali Məclis Sədrinin mətbuat işçilərinə qayğısının daha bir ifadəsidir.

Rəhman Məmmədov Milli Mətbuat Günü münasibətilə muxtar respublikanın bütün mətbuat işçilərini təbrik etmiş, onlara fəaliyyətlərində uğurlar arzulamışdır.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxışında bildirmişdir ki, 1875-ci il iyulun 22-də xalqımızın milli oyanışında, milli birliyinin möhkəmləndirilməsində mühüm rol oynayan “Əkinçi” qəzetinin nəşrə başlaması ilə Azərbaycanda milli mətbuatın əsası qoyulmuşdur. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında mətbuatın inkişafı daim diqqətdə saxlanılır. Bu gün qürur hissi ilə demək olar ki, Naxçıvan mətbuatı özünün əsl inkişaf dövrünü yaşayır. Bu inkişafdan “Nuh yurdu” qəzetinə də pay düşmüş, qəzetin fəaliyyəti üçün lazımi iş və yaradıcılıq şəraiti yaradılmışdır.

Tədbirdə “Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultanova və “Nuh yurdu” qəzetinin redaktoru Qafar Qənbərov çıxış edərək muxtar respublikada mətbuatın inkişafına göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

Sonra fəaliyyətlərində fərqlənən əməkdaşlara hədiyyələr təqdim olunmuşdur.

Tədbir çay süfrəsi arxasında davam etdirilmişdir.

**“Şərq qapısı”**

*Yeni nəşrlər*

## Xalq yazıçısı Elçinin “Baş” romanı nəşr edilib




*Xalq yazıçısı Elçin Əfəndiyevin “Baş” romanı “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə nəşr olunmuşdur.*

Romanın süjet xəttini Bakı xanlığında Rusiya imperiyası işğalçı ordusunun komandanı general Sisianovun başının kəsilməsi və Fətəli şah Qacara göndərilməsi, eləcə də bundan sonrakı gərgin hadisələr təşkil edir. Geniş əhatə dairəsinə malik olan bu tarixi-fəlsəfi romanda Azərbaycan xanlıqlarında, Gürcüstan, Şimali Qafqaz, Rusiya, İran, Osmanlı imperiyası, eləcə də Avropada həmin dövrdə baş verən siyasi hadisələr yüksək sənətkarlıqla təsvir olunub.

Əsər oxucunu XIX əsrin əvvəllərinə aparır. Bakıda və Qarabağda cərəyan edən, Sankt-Peterburqda, İranda baş vermiş hadisələr romanda bəhs olunan dövrün sosial-siyasi mənzərəsini yaradır. Stepan Razinin edam səhnəsi, Bakıda Qoşa Qala Qapısının qarşısında Qafqaz canişini general Sisianovun başının kəsilərək Azərbaycandakı, habelə İrandakı mövcud xanlıqların ərazilərindən keçə-keçə Tehrana aparılması, eləcə də Qarabağ xanına qarşı sui-qəsd ustalıqla işlənilmiş, tarixi faktlara dəqiqliklə istinad edilmişdir.

Bədii sözün gücündən ustalıqla istifadə olunan romanda müəyyən tarixi dövrdə və coğrafi məkanda baş vermiş hadisələr həm də yazıçı təxəyyülünün məhsulu kimi göstərilib. Təsvir olunan qəhrəmanların daxili aləmi, onların hiss və həyəcanları yazıçı Elçinə xas olan yüksək sənətkarlıqla qələmə alınıb. Yazıçı siyasi mübarizə və müharibə tarixlərinə diqqət yetirmiş, tarixi şəxsiyyətlərin daxili aləmini ustalıqla açmışdır. Müəllif əsərdə təsvir olunan obrazları belə xarakterizə etmişdir: *“Bu romanın qəhrəmanlarının bir qismi tarixi şəxsiyyətlərdir, ancaq onlarla bağlı hər bir epizodda və ümumiyyətlə, romanın hər səhifəsində tarixi dəqiqlik axtarmaq lazım deyil, həmin tarixi şəxsiyyətlər bu romanda artıq müəllifin qəhrəmanlarıdır”.*

“Baş” romanının müəllifi əsərdə özünün hansı xalqa və ədəbiyyata mənsubluğunu dərindən nümayiş etdirmişdir. Azərbaycan xanlıqlarının idarə olunması, əhalinin yaşayışı və üzləşdiyi çətinliklər, eləcə də XVIII əsrin sonu, XIX əsrin əvvəlləri Azərbaycan mədəni-məişət həyatı zəngin bədii koloritlə, obrazların dili ilə oxucuya çatdırılır, bəhs olunan dövrün bədii-etnoqrafik mənzərəsi böyük ustalıqla canlandırılır. Əsərdə mövcud gerçəkliyin milli mənəviyyat yönündən araşdırılması, milli koloritin üstün istiqamət kimi götürülməsi onu deməyə əsas verir ki, “Baş” romanı həm də Azərbaycançılıq ideologiyasına xidmət edən dəyərli yaradıcılıq nümunəsidir.

“Baş” romanının Naxçıvanda təkrar çap olunması zərurəti də, heç şübhəsiz ki, qeyd olunan üstün keyfiyyətlərdən qaynaqlanır. Əminliklə demək olar ki, bu əsər naxçıvanlı oxucular tərəfindən böyük maraqla qarşılanacaqdır.

**“Şərq qapısı”**

*Şəfa ocaqlarımız*

## Duzdağ Fizioterapiya Mərkəzində nümunəvi xidmət göstərilir

***Naxçıvan özünün nadir təbii-tarixi ehtiyatları, müasir iqtisadi inkişafı və xidmət sektorundakı keyfiyyətli servisləri ilə hər kəsin diqqətini cəlb etməkdədir. Unikal müalicəvi keyfiyyətlərinə görə dünyada tanınmış Duzdağ Fizioterapiya Mərkəzi də təklif etdiyi səhiyyə xidməti ilə muxtar respublikamıza gələn turistlərin sevimli istirahət və müalicə məkanıdır.***



Yay aylarında təbii üsullarla bronxial-astma və digər yuxarı tənəffüs yolları xəstəliklərindən müalicə olunmaq üçün Naxçıvan şəhərindən cəmi 12 kilometr məsafədə yerləşən Duzdağ Fizioterapiya Mərkəzinə müraciət edənlərin sayında bu il daha çox artım müşahidə olunur. Duzdağda göstərilən xidmətlər və pasiyentlərin təəssüratları ilə tanış olmaq üçün bu şəfa ocağına yollandıq.



Duzdağda qələbəliklə qarşılaşdıq. Buraya gələnlərin bir qismi çaykofe xidmətindən istifadə edir, bir qismi də mərkəzin girəcəyindəki möhtəşəm günbatımı mənzərəsinə baxır, xatirə fotoşəkilləri çəkdirirdi. Növbəti gecə seansı üçün servis avtobusları ilə buraya gələnlər arasında uşaqların çoxluğu ilk baxışda diqqətimizi cəlb etdi. Bu qənaətə mərkəzin baş həkimi Zülfiyyə Həsənova ilə söhbətdə də gəldik. Əvvəlcə pasiyentlərin qəbulu və sağlamlıq vəziyyəti ilə ciddi şəkildə maraqlanan baş həkim bizimlə söhbətində vurğuladı ki, bəli, son illər mərkəzə gələnlər arasında uşaqlar üstünlük təşkil edir. Bu il də belədir. İlin əvvəlindən müalicə üçün mərkəzə gələn, təqribən, 3 minə yaxın pasiyentin üçdə ikisi uşaqlar, 200 nəfərə yaxını isə xarici ölkə vətəndaşıdır.





Zülfiyyə həkim onu da qeyd etdi ki, Duzdağ öz sağlamlığını bərpa etmək istəyənlər üçün əvəzolunmaz yerdir. Belə ki, hələ keçən əsrin 70-ci illərində Duzdağ şaxtalarında təşkil olunmuş yeraltı müalicə mərkəzi geniş şöhrət qazanıb. Burada tətbiq olunan müalicə üsulu mütəxəssislər tərəfindən də üstün qiymətləndirilir. Ümumiyyətlə, Naxçıvanın təmiz havası ilə bərabər, Duzdağ şaxtalarında mövcud olan hava şəraiti, buranın quruluşu, dəniz səviyyəsindən yüksəkliyi, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı təşkil olunan müalicənin müsbət nəticələr verməsinə şərait yaradır. Belə ki, insanların dərinliyə enmədən birbaşa duz şaxtasına daxil olması, il ərzində havanın sabit müsbət 20 dərəcə temperaturda qalması, 24 faiz nisbi rütubət, oksigenin havadakı 20 faiz miqdarı, sıfra bərabər dərəcədə hava cərəyanı və zəhərli qazların son dərəcə minimum səviyyəsi Duzdağın müalicəvi effektini artıran əsas amillərdəndir. Şübhəsiz, son dövrlərdə burada yaradılan müasir infrastruktur şəraiti, ixtisaslı həkimlərin və texniki heyətin pasiyentlərlə yaxından maraqlanması və habelə təşkil olunan digər servislər istər müalicə məqsədilə gələnlər, istərsə də onları müşayiət edənlər üçün hər cür imkanlar yaradıb. Mərkəzdə fəaliyyət göstərən 25 nəfərlik tibbi personal da iki növbədə qəbul olunan pasiyentlərə günboyu xidmət göstərir. Müalicə prosedurlarına gəldikdə, baş həkim burada böyüklər üçün axşam saatları ərzində 14, uşaqlara isə gündüz saatlarında 8-10 günlük müalicə kursları təşkil olunduğunu, indiyə qədər heç bir ağırlaşma hallarının olmadığını, əksinə, insanların antiallergik dərmanlardan birdəfəlik azad olduqlarını bildirdi.

Ölkəmizin vətəndaşlarına burada qalmaq pulsuzdur. Buna görə də hər yaşdan və sosial kateqoriyadan olan insanların müalicəsinə imkanlar vardır. Elə xarici ölkələrdən gəlmiş turistlər üçün də Duzdağ çox əlverişlidir. Bir çoxlarının yaxınlıqdakı “Duzdağ” otelində və şəhərdəki digər otellərdə qaldığı qonaqlar arasında Rusiya Federasiyası, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan, Qırğızıstan və digər ölkələrin vətəndaşları vardır. Pasiyentlərlə söhbət zamanı məlum oldu ki, onların bir çoxu buraya müalicə üçün artıq neçənci dəfədir gəlirlər. Qazaxıstanın Astana şəhərindən gəlmiş Aliya Akpasova isə Naxçıvanda ilk dəfədir, olur. O, bacısı Kamilla ilə birlikdə qızları 10 yaşlı Altias və 7 yaşlı Tomrisin müalicəsi üçün Duzdağa gəldiyini, artıq 5 gün ərzində onların səhhətində yaxşılaşma olduğunu bildirdi. Rusiyanın Novosibirsk şəhərindən buraya üz tutan Oksana Prosekina isə oğlanları İlya və Aleksandrın Duzdağda müalicə oluna biləcəyini Bakıda yaşayan dostları sayəsində öyrəndiyini qeyd etdi. Artıq müalicə kursunun başa çatdığını və həftəsonu evlərinə qayıdacaqlarını söyləyən rusiyalı xanım növbəti səyahətində Naxçıvanın görməli yerləri ilə tanış olmaq istədiyini bildirdi. Türkiyə vətəndaşı Nərgiz Akgündən və ölkəmizin digər yerlərindən gəlmiş pasiyentlər də müsbət təəssüratlarını bizimlə bölüşdülər. Bakı şəhər sakini Sona Əzizova, yevlaxlı xanımlar Mətanət Mirzəyeva və Nabat Muxtarova isə burada dincəlib müalicə alan bütün insanlar, xüsusən qadın və uşaqların tələbatları üçün hər cür şərait yaradılmasından, ciddi müalicə və yuxu rejimi tətbiq olunmasından razılıqla söhbət açdılar.



*Bəli, Naxçıvanın suyu, havası kimi duzu da min bir dərdin dərmanıdır. Təbiətin bu torpağa bəxş etdiyi bütün nemətlər ölkəmizin milli sərvətidir. Duzdağın möcüzəli müalicəvi xüsusiyyətləri də bir sərvət kimi həm ölkəmizdə, həm də bütün dünyada yuxarı tənəffüs yolları xəstəliklərindən əziyyət çəkənləri əvvəlki sağlamlığına qovuşdurmaqla, əslində, bütün insanlığa xidmət etməkdədir.*

**Əli CABBAROV**

***Müasir dünyada biznesin inkişafı elə bir səviyyəyə çatıb ki, müxtəlif sektorlar üzrə yeniliklərin, müştəriyə daha yaxın olan xidmətlərin müəyyən növləri ilə tez-tez tanış oluruq. Ancaq bu sektorlar içərisində ən "yaşlısı" sayılan pərakəndəçilik hələ də öz birinciliyini qorumaqda davam edir. Qeyd edək ki, ölkədə biznesin genişlənməsinin, inkişafının əsas göstəricisi məhz pərakəndəçilik sektorudur. Pərakəndəçilik sektoru nədir? Qısa, həm də qəliz terminlərdən uzaq desək pərakəndəçiliyi belə başa düşə bilərik: pərakəndəçilik istənilən məhsulu böyük həcmdə (topdan) alıb, müştəriyə kiçik həcmlərlə (pərakəndə) satmaqdır. İlk baxışda sadə görünən bu alış-satış prosesi, əslində, çox məntiqli, xüsusi bacarıq tələb edən əsaslar üzərində qurulub. Bu yazımız da muxtar respublikamızda pərakəndəçilik sektorunun müasir vəziyyəti və gələcəyi haqqındadır.***

# Pərakəndə satış sektoru dünənin, bu günün və gələcəyin gözü ilə

Muxtar respublikamızda pərakəndəçilik sektorunun indiki vəziyyəti haqqında danışmazdan əvvəl bu sektorun yaxın keçmişinə nəzər salaq. Əvvəlcə onu qeyd edək ki, pərakəndəçiliyin bir sektor olaraq inkişafı müstəqilliyimizin bərpa edilməsindən sonrakı dövrə təsadüf edir. Həmin dövrdə ölkəmizdə, eyni zamanda muxtar respublikamızda kiçikhəcmli satış obyektlərinin yaranması bu sektorun ilk işartıları idi. Təbii ki, müstəqilliyin ilk illərində ölkədə yaranmış xaos biznesə də öz mənfi təsirini göstərmişdi. Həmin dövrdə vətəndaşların əlində pul kütləsi olsa da, istehlak üçün zəruri məhsullar qıt idi. Heç bir istehsal müəssisəsinin işləməməsi, kənd təsərrüfatının iflic vəziyyətinə düşməsi qonşu ölkələrdən məhsul idxalını daha da zəruri edirdi. Muxtar respublikaya əsas qida məhsulları qonşu Türkiyə və İrandan idxal olunur və onun satışı da müasir pərakəndəçilik qaydalarından uzaq, necə gəldi, təşkil edilirdi. Məhz həmin dövrlərdə Naxçıvan şəhərində, rayon mərkəzlərində, kəndlərdə çoxsaylı "mağazalar" fəaliyyət göstərirdi. Yaşadığı evdən küçəyə kiçik pəncərə açaraq alver edənlərin qazancı heç də az deyildi. Ancaq söhbət ondan gedir ki, belə mağazaların sayı həddən çox idi. Hətta 80-100 nəfərin yaşadığı bir məhəllədə bəzən 10-a yaxın belə mağazanın olduğunu çoxumuz xatırlayırıq. Ərzaq və yuyucu məhsullarının, bəzi hallarda bir neçə geyim aksesuarının bir rəfdə yerləşdirildiyi həmin mağazalarda satış qiyməti çox zaman yüksək olurdu. Məhz bu cür kortəbiiliyin, antisanitar vəziyyətin dəyişməsi üçün bu sahədə yeni bir mərhələnin başlanması labüd idi.



Doğrudur, pərakəndəçilik sektorunda yeni mərhələnin başlanması dövlət strukturlarının səlahiyyətində olmasa da, bu istiqamətdə müxtəlif inzibati addımların atılması zəruri idi. Xüsusilə şəhər infrastrukturunda müəyyən dəyişikliklərin edilməsi pərakəndə satış sektorunda əsas aparıcı obyektlərdən olan yeni növ mağaza və marketlərin yaradılmasında yeni bir dönəmin başlamasından xəbər verirdi. Bu mərhələdə isə bir zamanlar işsizlik ucbatından bir çoxlarının müvəqqəti məşğuliyyətinə çevrilmiş biznes bu sahədə daha çox ixtisaslaşmış və ya müəyyən təcrübə qazanmış insanları özünə cəlb edirdi. Bazar qaydalarına görə, biznesə təsadüfi gəlmiş insanlar bu sahəni tərk edəcək, nisbətən fərqlənənlər öz yollarına davam edəcəkdilər. Təxminən, 2000-ci illərdək davam edən bu vəziyyət sonrakı illərdə daha fərqli və yeni bir mənzərəni formalaşdıracaqdı. Bu mənzərə isə yeni marketlərin sayının artması, şəhərdəki bazarların fəaliyyətinin nisbətən yaxşılaşması ilə izah oluna bilər. Buna görədir ki, bazar obyektlərində və ya bu obyektlərin ətrafında mağazaların sayının artması sektora da öz təsirini göstərirdi. Digər təsir isə ondan ibarət idi ki, artıq yerli məhsulları istehsal edəcək müəssisələr yaranır və ildən-ilə bu məhsulların həcmi genişlənirdi. Uzağa getməyək, pərakəndəçilik sektorunda son 15 ilə nəzər salsaq, bir çox müsbət dəyişikliklərin baş verdiyinin şahidi olarıq. Bu dəyişikliklərin əsas səbəbi isə son illər muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində atılan qətiyyətli addımlar, sahibkarlıq fəaliyyətinə dövlət dəstəyinin genişləndirilməsi, yerli ərzaq və qeyri-ərzaq məhsullarının bazarda payının artması və əhalinin sosial rifahının yüksəlməsidir.

Pərakəndəçilik bu gün həyatımızda gedən istənilən dəyişikliyi özündə əks etdirən sektordur. Eyni zamanda nəzərə alaq ki, bazar iqtisadiyyatı qaydalarına görə pərakəndəçi marketoloqların gözləri digər sektorda işləyənlərlə müqayisədə daha açıq olur. Əslində, belə də olmalıdır. Çünki istehlakçı ilə son əlaqəni quran, onun maraqlarını hamıdan əvvəl görən də məhz pərakəndəçilərdir. Bu biznes məntiqi ona gətirib çıxarır ki, həmin sektor digər iqtisadi sektorlara əməlli-başlı təsir göstərə bilir.

İndi isə fikrinizi bir müqayisəli təhlilə yönəltmək istərdim. Hər gün şəhərimizdəki mağazaların xidmətlərindən istifadə edirik. Pərakəndəçiliyin ikinci mərhələsində nəyə nail olmuşuq? Yəni az əvvəl qeyd etdiyimiz 2000-ci ildən indiyədək hansı dəyişikliklərin şahidi olmuşuq? Birinci onu deyək ki, müştəri kimi indi daxil olduğumuz mağazalarda məhsulların sərgilənməsi prinsipini qənaətbəxş hesab etmək olar. Təmizlik, məhsulların saxlanma qaydaları, alıcı-satıcı münasibətləri, çeşid müxtəlifliyi, yerli məhsulların həcminin çox olması, müştərilərin keyfiyyətli məhsullara daha çox maraq göstərməsi müəyyən qədər sektorun nailiyyətləridir. İkinci bir tərəfdən, əgər 15 il bundan əvvəl, məsələn, ərzaq mağazası açmaq istəyənlər şəhərin mərkəzi hissəsinə daha çox üstünlük verirdisə, bu gün artıq müxtəlif məhəllələrdə belə, yüksək gəlirlə fəaliyyət göstərən mağazalar var. Əvvəlki mərhələdə böyük marketlərdə eyni ərzaq məhsullarının satışı məhəllə mağazaları ilə müqayisədə nisbətən bahalı olurdusa, indi bu fərq aradan qalxıb. Burada vurğulanmalı məqamlardan biri də odur ki, son illərdə şəhərimizdə, eləcə də muxtar respublikamızın digər bölgələrində müasir satış obyektlərinin fəaliyyətə başlaması yeni ticarət mədəniyyətinin formalaşmasına təsir edib. Artıq istehlakçılar komfortlu, işıqlı, vizual görüntüsü xoş təsir bağışlayan ticarət şəbəkələrində ona lazım olan məhsul çeşidlərini asanlıqla tapa, aldıqları məhsula görə bir çox zəmanətləri özündə birləşdirən elektron resurslardan və satış qəbzlərindən yararlana və ticarət obyektlərinin digər xidmətlərindən faydalana bilirlər.



Biznes stabil sahə olmadığı üçün bu sahədə irəliyə doğru inkişaf qaçılmazdır. Elə buna görə də istərdik, pərakəndəçilik sektorunun yaxın gələcəyi ilə bağlı bəzi ehtimalların üzərində dayanaq.

Birinci ondan başlayaq ki, pərakəndəçilik sektoru hazırda ölkəmizdə, eyni zamanda muxtar respublikamızda özünün dinamik dövrünü yaşayır. Buna görə də mağazaların ixtisaslaşma zamanı artıq çoxdan yetişib. Bunu necə başa düşmək olar? Əvvəllər fərqli kateqoriyalara malik məhsulların satışı bir mağazada alıcıya təklif olunurdusa, yeni yaranan mağazalarda fərdiliyin qorunmasına üstünlük verilir. Məsələn, əvvəllər ərzaq mağazasının bir qismində uşaq oyuncaqları və ya fərqli bir xırdavat növünə rast gəlinirdisə, indiki mərhələdə onlardan yalnız birinə üstünlük vermək daha çox uğur gətirir. Və yaxud əvvəllər hər hansı geyim mağazasının bir bölümündə idman geyimlərinə rast gəlinirdisə, indi sırf idman aksesuarları üçün mağaza işlətmək daha sərfəli hesab edilir. Bunun isə məntiqi səbəbi vardır: inkişaf davam etdikcə, insanların maddi vəziyyəti yaxşılaşdıqca, ehtiyacları da çoxalır. Mağazalar isə bunu ödəmək üçün eyni ehtiyac növünə üstünlük verməli olurlar. Artıq bunun bəzi işartılarını da görmək mümkündür. Əvvəlcə marketlərdə çox dar çərçivədə unlu şirniyyat məmulatlarına rast gəlinirdisə, bu gün yerli istehsal markaları olan "Damla" və "Fərda" şirniyyatları öz fərdi mağazalarında müştərilərinə müxtəlif çeşidli məhsullarla xidmət göstərirlər. Başqa bir misal. Bu gün dünyanın ən məşhur pərakəndə şəbəkələrinin əksəriyyətində satılan məhsulların 30, 40 faizi şəbəkənin öz məhsulları olur. Deməli, yerli məhsulların həcminin genişlənməsi onlara uyğun ticarət şəbəkələrinin açılmasına daha çox ehtiyac yaradır.

Buradan belə bir sual meydana çıxa bilər ki, pərakəndəçilik sektorunun inkişafı böyük ticarət mərkəzlərinin yaradılmasından tutmuş hipermarketlərin açılmasınadək genişlənirsə, bəs kiçik məhəllə mağazalarının taleyi necə olacaq? Qeyd edim ki, hazırda bizim pərakəndəçilik sektorunda keçdiyimiz prosesi Rusiya və Türkiyə kimi ölkələr 10-12 il bundan əvvəl keçiblər. Təcrübə göstərir ki, heç bir halda məhəllə mağazaları və ya kiçik ticarət obyektləri bu prosesdə öz müştərilərini itirmirlər. Birinci ona görə ki, potensial müştəri heç zaman böyük marketlərdə istəyini kiçik mağazalardakı kimi sərbəst çatdıra bilmir. Çünki kiçik mağazalardakı satıcılarla (bunların böyük əksəriyyəti sahibkarlar olur) qurulan səmimi ünsiyyətlə böyük marketlərin satıcıları arasındakı gedən "rəsmi" ünsiyyət arasında fərq var və bu amil bütün ölkələrdə və şəhərlərdə eynidir. İkincisi, müştəri müəyyən zamanlarda vəsaiti olmasa belə, kiçik mağazalardan nə isə ala və pulunu sonra ödəyə bilir. Çünki kiçik mağazalardakı satıcıların böyük bir qismi, qeyd etdiyimiz kimi, sahibkarların özləri olduğu üçün, onların satışla bağlı birbaşa qərarvermə səlahiyyətləri olur. Nəhayət, mütəmadi olaraq kiçik bir məhsula ehtiyac duyulduğunda müştərilər böyük marketlərə deyil, daha çox məhəllə mağazalarına üz tuturlar. Məhz kiçik mağazaların bu tərəfləri onların müştəri kütləsini əllərində saxlamasına imkan verir. Bu isə ekspertlərin də düşündüyü kimi, kiçik mağaza sahiblərinə gələcək fəaliyyətləri üçün narahatlıq yaratmamağa əsas verir.

Bəli, pərakəndəçilik sektoru bu gün dünyada istehsal olunan məhsulların keyfiyyətindən tutmuş rəqabət bazarının formalaşmasınadək, reklam bazarının inkişafından yerli məhsulların brendləşməsinə qədər müxtəlif prosesləri tənzimləyir və nəzarətdə saxlayır. Ona görə də bu sektorda yaxın illərdə bir çox yeniliklərlə qarşılaşacağımız şübhəsizdir. Yeni mərhələ, eyni zamanda müasir pərakəndəçilik davranışlarını və mədəniyyətini ortaya çıxaracaq ki, bu sahədə yalnız vaxtında və dəqiq hədəflərə doğru hərəkət edənlər uğur qazanacaq.

**Səbuhi HƏSƏNOV**

# Bu ünvanda hər zövqə uyğun mebel əldə edə bilərsiniz

***Muxtar respublikamızda sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bunun üçün sənaye istehsalı ilə məşğul olan ayrı-ayrı müəssisələr yaradılır ki, bu da daxili bazarın tələbatının ödənilməsi baxımından müstəsna əhəmiyyət daşıyır.***

Belə müəssisələrdən biri də "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bu günlərdə adıçəkilən ünvanda olduq. İş prosesi ilə tanışlıq zamanı öyrəndik ki, istehsal müəssisəsi 2010-cu ildə fəaliyyətə başlayıb. Burada müxtəlif çeşiddə keyfiyyətli məhsul istehsalı üçün Almaniya, İtaliya və Türkiyə respublikalarından müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Hazırda fabrikdə divan-kreslo və yumşaq oturacaqlı stullar, həmçinin ofis, mətbəx, yataq, qonaq və uşaq otağı mebelləri, müxtəlif qapı-pəncərə modelləri hazırlanır.





Bu ünvanda müştərilər müxtəlif ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, binalar üçün müxtəlif avadanlıqları seçə, dizayn-dekorasiya xidmətlərindən yararlana bilərlər. Ötən dövrdə artan tələbat nəzərə alınaraq yeni istehsal sahələrinin yaradılmasına təşəbbüs göstərilib. Bu təşəbbüsə dövlət qayğısı nəticəsində nail olunub. Belə ki, fabrik tərəfindən silikon yorğan-döşək və yataq bazası istehsalı sahələrinin biznes-planı hazırlanaraq Sahibkarlığa Kömək Fonduna təqdim edilib. Layihəyə uyğun olaraq, müəssisənin ərazisində yeni istehsal sahəsi üçün bina inşa olunub. Türkiyənin "Elektroteks" və "İMS Makina" şirkətlərindən avadanlıqlar alınıb gətirilib və idxal olunan dəzgahlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılıb. İstehsal sahəsində çalışan yerli mütəxəssislərin hazırlanması üçün işçilərin ixtisasartırma kurslarında iştirakı təmin edilib. Yeni yaradılan istehsal sahəsinin gücü saatda 200 ədəd yorğan, gündə 100 ədəd döşək və 100 ədəd yataq istehsalına çatır.

Müəssisədə məhsulların keyfiyyətinə nəzarət göstərilməsi üçün laboratoriyada müasir avadanlıqlar quraşdırılıb. Hazırlanan məhsulların satışı da diqqət mərkəzində saxlanılır. "Gəmiqaya" tanıtım nişanı ilə istehsal olunan bu məhsullar fabrikin sərgi-satış salonunda, Naxçıvan şəhərinin "Təbriz" küçəsində, Babək məhəlləsində və Ordubad şəhərində fəaliyyət göstərən mebel mağazalarında satışa çıxarılır. Sevindirici haldır ki, müəssisənin istehsal etdiyi müxtəlif dizaynlı mebellər ölkəmizin digər regionlarında da böyük alıcı rəğbəti qazanıb. Bunlar nəzərə alınaraq Bakı şəhərinin Nərimanov və "Neftçilər" prospektlərində, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Azərbaycanın digər bölgələrində satış mərkəzləri yaradılıb. Müəssisə işçiləri qazanılan nailiyyətlərlə kifayətlənməyib və gələcəkdə daha böyük uğurlara imza atmaq niyyətindədirlər.

*Bəli, bu gün hər bir muxtar respublika sakini xaricə getmədən Naxçıvanda istehsal olunan, dünyanın ən müasir mebelləri ilə rəqabətə girə biləcək keyfiyyətli məhsullar əldə edə bilər. Bu imkanı isə sakinlərə "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradıb.*

**Nail ƏSGƏROV**

## “Yay məktəbi”nin növbəti iştirakçıları Naxçıvan Musiqi Kollecinin tələbələri olublar





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Ağbulaq İstirahət Mərkəzində təşkil etdiyi gənclərin “Yay məktəbi” davam edir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman, Mədəniyyət və Turizm nazirlikləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Musiqi Kolleci, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının iştirakı ilə reallaşdırılan “Yay məktəbi”ndə əvvəlcə gənclər İstirahət Mərkəzi ilə tanış olmuşlar. Məktəbin ilk günü onlar stolüstü idman oyunları oynamış, onlar arasında “Nuh yurdu” intellektual oyunu keçirilmiş, günün sonunda isə aprel döyüşlərindən bəhs edən “Qarabağa doğru” sənədli filmə baxmışlar.

İkinci gün “Yay məktəbi”nin iştirakçıları arasında müxtəlif idman və əyləncəli oyunlar keçirilmiş, Naxçıvan Musiqi Kolleci tələbələrinin ifasında müxtəlif şeirlər və musiqi nömrələri səsləndirilmiş, Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin kollektivinin konsert proqramı təşkil olunmuşdur. Günün sonunda isə şəhid Toğrul Məmmədova həsr olunmuş “Vətən uğrunda” sənədli filmi nümayiş etdirilmişdir.

Üçüncü gün isə gənclərin Şahbuz Dövlət Təbiət Qoruğuna gəzintisi təşkil olunmuş, gəzinti zamanı çəkilmiş fotoşəkillərin müsabiqəsi keçirilmişdir. Fərqlənən fotoşəkillərin müəllifləri, həmçinin “Nuh yurdu” intellektual oyununda və “Yay məktəbi”ndə fəal iştirak edənlər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşlar. Günün sonunda isə gənclər Naxçıvan şəhərinə yola düşmüşlər.

“Yay məktəbi”ndə Naxçıvan Musiqi Kollecində təhsil alan 60 nəfər tələbə iştirak etmişdir.

C.MƏMMƏDOV

## Milli Mətbuat Günü münasibətilə tibbi aksiya təşkil edilib

***22 iyul – Milli Mətbuat Günü münasibətilə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim briqadası tərəfindən “Gələcəyə sağlam baxış” devizi altında Naxçıvan Muxtar Respublika Xəstəxanasında tibbi aksiya təşkil olunub.***

Tibbi aksiya zamanı Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən jurnalistlər, onların ailə üzvləri müayinələrdən keçiriliblər.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin cərrah-oftalmoloqu Humay Bayramova bildirib ki, müraciət edənlər həkim briqadası tərəfindən müayinə olunub, xəstəlikləri aşkar edilənlərə müalicə yazılıb, həkim məsləhəti verilib. Cərrahiyyə əməliyyatına ehtiyacı olanlar isə bu həftə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim briqadası tərəfindən əməliyyat ediləcəklər.

Müayinə olunan jurnalistlərdən Elman Məmmədov, Səməd Canbaxşıyev, Aygün Hüseynli və Ramal Məmişov belə bir nəcib aksiyanın keçirilməsinin jurnalistlərə göstərilən diqqət və qayğının növbəti ifadəsi olduğunu deyiblər. Qeyd ediblər ki, jurnalistlərin peşə xəstəlikləri sırasında göz xəstəliklərinə daha çox rast gəlinir. Bu mənada, belə bir aksiyanın keçirilməsi təqdirəlayiq haldır.

## Birinci və dördüncü ixtisas qruplarının qəbul imtahanları keçirilib



***Dövlət İmtahan Mərkəzi iyulun 22-də 2017-2018-ci tədris ili üçün birinci və dördüncü qruplar üzrə qəbul imtahanları keçirib.***

Naxçıvan şəhərində imtahanlar 7 və 14 nömrəli tam orta məktəblərdə, ümumilikdə, 48 zalda keçirilib. Yüz nəzarətçi-müəllimin, 8 rəhbərin cəlb olunduğu imtahanlarda 995 abituriyent iştirak edib.

Həmin gün “Space” telekanalında canlı yayımlanan “Abituriyent” verilişində Dövlət İmtahan Mərkəzinin məsul əməkdaşları və ekspertlər tərəfindən imtahan suallarının düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib.

Abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri 3-4 gün müddətində Dövlət İmtahan Mərkəzinin internet saytında yerləşdiriləcəkdir.

Fatma BABAYEVA

## Naxçıvan Muxtar Respublikası üzrə 24 iyul 2017-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4 144 | 3 516 | 11 216 | 31,9 |
| 2. | Babək rayonu | 10 420 | 9 697 | 30 087 | 31,0 |
| 3. | Ordubad rayonu | 1 671 | 1 439 | 3 917 | 27,2 |
| 4. | Culfa rayonu | 6 048 | 5 028 | 14 138 | 28,1 |
| 5. | Kəngərli rayonu | 4 364 | 4 001 | 11 346 | 28,4 |
| 6. | Şahbuz rayonu | 1 591 | 802 | 2 281 | 28,4 |
| 7. | Sədərək rayonu | 2 440 | 2 168 | 6 811 | 31,4 |
| 8. | Naxçıvan şəhəri | 954 | 799 | 2 185 | 27,3 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | 31 632 | 27 450 | 81 981 | 29,9 |

## Sağlamlıq imkanları məhdud uşaqlar üçün tamaşa göstərilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nda bu kateqoriyadan olan uşaqların asudə vaxtının səmərəli təşkili üçün bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Belə tədbirlərdən biri iyulun 22-də olub. M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında sağlamlıq imkanları məhdud uşaqlar üçün göstərilən tamaşa onlar tərəfindən maraqla qarşılanıb.

Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi və bu qəbildən olan tədbirlərin uşaqların tərbiyəsində, onların dünyagörüşünün formalaşmasında mühüm rol oynadığını nəzərə alaraq həmin tədbirlər müntəzəm şəkildə davam etdiriləcəkdir.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

*İdman xəbərləri*

## Sambo yarışının qalibləri müəyyənləşib



***İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında kiçikyaşlı yeniyetmələr (2006-2008-ci illər) arasında sambo üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov çıxış edərək yarışın məqsədi barədə idmançılara geniş məlumat veriblər.

Birincilikdə 9 çəki dərəcəsi üzrə 40-a yaxın idmançı mübarizə aparıb. Beynəlxalq Sambo Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarışda Məhəmməd Seyidov, Səid Seyidov, Sami Səfərov, Xanpolad Tutayuk, Məhəmməd İsayev, Bulud Əliyev, Faiq Məmmədli, Rauf Cabbarlı və Məhəmməd Əlizadə müvafiq olaraq 23, 26, 29, 32, 35, 38, 42, 46 və 53 kiloqram çəki dərəcələrində birinci yerə layiq görülüblər.

Hər çəki dərəcəsində yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Qalib üzgüçü qızlar mükafatlandırılıb



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində məktəbli qızlar arasında keçirilən üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyinə yekun vurulub.***

Yarışın keçirilməsində məqsəd məktəblilərin yay tətilində asudə vaxtlarının daha da səmərəli təşkili və onlara sağlam həyat tərzi aşılamaqdır.

Üzgüçülüyün sərbəst üsulu üzrə 25 və 50 metr məsafədə təşkil edilən yarışda 3 yaş qrupunda 25 idmançı mübarizə aparıb.

Yekun nəticəyə əsasən 2001-2003-cü illər təvəllüdlü idmançılar arasında 50 metr məsafədə Nərmin Həsənova, 2004-2005-ci illər təvəllüdlü idmançılar arasında 25 metr məsafədə Zöhrə Kəngərli və 2006-2008-ci illər təvəllüdlü idmançılar arasında 25 metr məsafədə Gülan Əhmədova bütün rəqiblərini geridə qoyaraq qalib adını qazanıblar.

Sonda hər yaş qrupunda yer tutan və fərqlənən idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları təqdim edilib.

Birincilik Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin və İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkilatçılığı ilə keçirilib.

## Muxtar respublikanın şəhər və rayonlarında futbol üzrə birinciliklərə start verilib



***Gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliyinə start verilib.***

Culfa rayonunun Bənəniyar kənd futbol meydançasında Yaycı və Göydərə kənd komandaları üz-üzə gəlib. Görüşü 4:3 hesablı qələbə ilə başa vuran Göydərə komandası növbəti mərhələyə yüksəlib.

Şahbuz rayonunda 9 komandanın mübarizə apardığı birinciliyin ilk oyununda Kükü və Badamlı kənd komandaları qarşılaşıb. Görüş birincilərin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Sədərək kənd stadionunda keçirilən görüşün qalibi isə müəyyənləşməyib. Sədərək və Qaraağac kənd komandalarının qarşılaşmasında hesab bərabər olub – 4:4.

Şərur rayonunun Aralıq kənd stadionunda Dizə və Qarxun kənd komandaları üz-üzə gəlib. Görüş dizəlilərin 6:1 hesablı qələbəsi ilə yekunlaşıb. Digər böyükhesablı qələbə Naxçıvan şəhərində qeydə alınıb. Belə ki, Qaraçuq komandası Tumbul komandasını 16 dəfə meydanın mərkəzinə dəvət edib – 16:4.

Kəngərli rayon birinciliyində ilk oyun gərgin mübarizə ilə yadda qalıb. Böyükdüz kənd komandası Qarabağlar kənd komandasına 4:5 hesabı ilə məğlub olub. Ordubad rayonunda isə Kələntər Dizə kənd komandası Düylün kənd komandasından üstün olub – 5:2.

Qeyd edək ki, növbəti oyunlar iyul ayının 29-da keçiriləcək.

Ceyhun MƏMMƏDOV

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 597